**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ İSRAİL DÖVLƏTİ ARASINDA HUMANİTAR MÜNASİBƏTLƏR

İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Surxay Fizuli oğlu Hacıyev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2023**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Siyasi elmlər doktoru, professor
**Musa Nizam oğlu Quliyev**

**Rəsmi opponentlər:** Siyasi elmlər doktoru, professor
**Hicran Kamran qızı Hüseynova**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ləman Zahid qızı Qarayeva**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Sənan Səməndər oğlu Həsənov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Akademik
________________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, professor
________________ **Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, prof. əvəzi
________________ **Adil Mirabdulla oğlu Mirabdullayev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bəşəriyyətin keçdiyi uzun tarixi yol və əldə etdiyi zəngin təcrübə göstərir ki, beynəlxalq münasibətlər sistemində dövlətlərarası humanitar əməkdaşlığın genişlənməsi, ikitərəfli və çoxtərəfli əlaqələrdə humanistlik ideyalarının dominantlığı inkişaf, sabitlik, sülh və təhlükəsizliyin təminatının əsas şərtlərindəndir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra dünyanın müxtəlif regionlarını təmsil edən ölkələr, o cümlədən Yaxın Şərq ölkələri ilə qarşılıqlı əlaqələr yaratmağa nail olmuşdur. İslam mədəniyyətinə aid olan Azərbaycanın Yaxın Şərq ölkələri ilə əlaqələri yalnız müsəlman ölkələri ilə məhdudlaşmır, əhalisinin əsas hissəsi yəhudilərdən ibarət olan İsraili də əhatə edir. Azərbaycan həm İsrail, həm də ərəb ölkələri ilə normal əlaqələr qurmağa müvəffəq olmuş azsaylı ölkələrdəndir.

Tədqiq olunan mövzunun aktuallığı hər şeydən əvvəl Azərbaycan-İsrail əlaqələrinin məzmunu və geniş spektri ilə şərtlənir. Çoxşaxəli əhatə dairəsinə və müsbət inkişaf dinamikasına malik bu əlaqələr ildən-ilə daha da genişlənir. Ümummilli Lider Heydər Əliyevin beynəlxalq xarakterli müxtəlif tədbirlərdə İsrail dövlətinin rəhbərləri ilə görüşləri, habelə İsrailin prezidenti Şimon Peresin 2009-cu ildə, bu ölkənin baş naziri Benyamin Netanyahunun 1996 və 2016-cı illərdə Bakıya səfərləri iki ölkə arasında ikitərəfli münasibətlərin daim inkişaf etdiyini göstərir. Bu dialoqun məntiqi nəticəsi qismində iki ölkə arasında qurulmuş hərbi sənaye sahəsindəki əməkdaşlıq münasibətləri bu gün də davam etməkdədir.

Mövzunun aktuallığına dəlalət edən məqamlardan biri də ikitərəfli humanitar əlaqələrin zaman baxımından qiymətləndirilməsi, onların tarixi amillərlə şərtləndirilməsi ilə bağlıdır.

Humanitar sahədə Azərbaycan və İsrail dövlətlərarası əlaqələri XX əsrin sonları-XXI əsrin əvvəllərini əhatə etməsinə baxmayaraq, bu əlaqələr Azərbaycan və yəhudi xalqları arasındakı çoxəsrlik təməl üzərində inkişaf etmişdir. Məlumdur ki, yəhudilərin Azərbaycanda məskunlaşmasının çoxəsrlik tarixi vardır. Ayrı-ayrı dövrlərdə dünyanın müxtəlif regionlarında təqiblərə məruz qalmış yəhudilərin bir hissəsi məhz Azərbaycanda özünə sığınacaq tapmış, burada məskunlaşmışdır.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda kapitalizmin sürətli inişafı yeni-yeni yəhudi qruplarının iqtisadi motivlərlə də bura gəlmələrini şərtləndirmişdir. Nəticədə Azərbaycan ərazisində yəhudi icmaları formalaşmış və əsrlər boyu Azərbaycan xalqı ilə yanaşı yaşamış, dostluq şəraitində mövcud olmuşlar. Onlar öz adət-ənənələrini qoruyub saxlamaqla yanaşı, Azərbaycanın ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatında iştirak edərək ümumi inkişafa öz töhfələrini vermişlər.

Müasir dünyada dini və etnik dözümsüzlük, ayrıseçkilik, islamofobiya, ksenofobiya və s. mənfi halların bir sıra ölkələrdə, xüsusilə bəzi Qərb ölkələrində sürətlə yayılması və bəzi hallarda həyat tərzinə çevrilməsi şəraitində çoxmillətli və çoxkonfessiyalı dövlət olan Azərbaycan tam fərqli bir nümunə ortaya qoyaraq, Azərbaycan xalqının təbiətindən irəli gələn humanistlik ideyalarını rəhbər tutaraq, respublikada yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin rahat yaşaması və inkişafı üçün hər cür şəraiti yaradır, multikultural dəyərlərə sadiqlik nümayiş etdirir, sivilizasiyalararası dialoqun genişlənməsinə öz töhfəsini verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sahədə mövcud vəziyyəti qiymətləndirərək bildirmişdir: *"Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq. Biz bunu özümüz üçün edirik. Əlbəttə, çox istərdik ki, başqa ölkələr də bizim təcrübəmizdən istifadə etsinlər. Başa düşsünlər ki, dinlərarası münaqişə fəlakətə gətirib çıxarır. Başa düşsünlər ki, müxtəlif dinlərin, millətlərin nümayəndələri normal qardaşlıq, dostluq şəraitində bir yerdə yaşaya bilərlər, necə ki, Azərbaycanda yaşayırlar"*[1].

Qeyd olunanlara əsasən demək mümkündür ki, müraciət olunan mövzu Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi və Azərbaycan-İsrail münasibətlərində də öz təcəssümünü tapdığı tolerantlığı, humanistliyi işıqlandırmaq baxımından da əhəmiyyətlidir. Beləliklə, tədqiqat işinin mövzusunun aktuallığı aşağıdakı müddəalarda ifadə edilə bilər:

---

[1] Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin yekun nitqi. [Elektron resurs]: URL: http://www.president.az

– Heydər Əliyev iki ölkə arasında yaranmış münasibətlərdən bəhs edərkən qeyd etmişdir ki, *"Xaricdə yaşayan yəhudilərin nümayəndələri tez-tez ölkəmizi ziyarət edirlər. Ölkələrimiz arasında əlaqələrin daim inkişaf etməsi üçün geniş imkanlar vardır. Bu münasibətlərin daha da genişləndirilməsi olduqca zəruridir"*[2];

– Azərbaycan-İsrail qarşılıqlı əlaqələrini əhatə edən sahələrdən biri də humanitar sahədə əməkdaşlıqdır. Humanitar əlaqələrin elmi tədqiqat obyektinə çevrilməsi, əldə olunan nəticələrin praktiki fəaliyyətdə nəzərə alınması Azərbaycan-İsrail münasibətlərini sistemli şəkildə daha da inkişaf etdirmək baxımından əhəmiyyətlidir;

– Ermənistan-Azərbaycan münaqişəsi və onun ağır nəticələri Azərbaycan Respublikasının müasir dövrdə üzləşdiyi ən böyük problemlərdən biri olmuş, informasiya əldə etmək və yaymaq sahəsində geniş imkanlara malik İsrail dövlətinin mənəvi və siyasi dəstəyi 44 günlük müharibədə xüsusi rol oynamışdır;

– Mövzunun aktuallığına dəlalət edən məqamlardan biri də ikitərəfli humanitar əlaqələrin zaman baxımından qiymətləndirilməsi, onların tarixi amillərlə şərtləndirilməsi ilə bağlıdır. Azərbaycan ərazisində formalaşmış yəhudi icmaları əsrlər boyu Azərbaycan xalqı ilə dinc və dostluq şəraitində yaşamış, adət-ənənələrini qoruyub saxlamaqla bərabər, Azərbaycanın ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatında iştirak etmiş, ümumi inkişafa öz töhfələrini vermişlər;

– Müasir dünyada dini və etnik dözümsüzlük, ayrı-seçkilik, islamofobiya, ksenofobiya və s. mənfi hallar sürətlə yayılmaqda, bir sıra ölkələrdə həyat tərzinə çevrilməkdədir. Belə bir şəraitdə, çoxmillətli və çoxkonfessiyalı dövlət olan Azərbaycan tam fərqli bir nümunə ortaya qoyur.

– İsrailin elm və yüksək texnologiyalar ölkəsinə çevrilməsi və onun Azərbaycanla humanitar əlaqələrinin inkişaf etməsi elmi maraq kəsb edir.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, İsrail ilə münasibətələr müxtəlif sahələrdə, o

[2] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in İstanbul zirvə toplantısında İsrailin Baş naziri Ehud Barak ilə görüşündəki söhbətindən (Ankara, "Çırağan sarayı": 18 noyabr 1999-cu il) [Elektron resurs] / URL: https://lib.aliyevheritage.org/az/9188661.html

cümlədən humanitar əlaqələr sahəsində davamlı olaraq inkişaf etmiş, XXI əsrin əvvəllərində daha intensiv xarakter almışdır. Lakin son dövrlərə qədər Azərbaycan-İsrail ikitərəfli münasibətləri sistemli şəkildə öyrənilməmiş, aparılmış tədqiqatlarda Azərbaycanın yəhudi icmasının tarixi və mövcud vəziyyəti əsas mövzu olmuş, ikitərəfli əlaqələrlə bağlı bəzi məsələlərə səthi toxunulmuşdur.

İstənilən iki ölkə arasındakı münasibətlər əlahiddə şəkildə deyil, mövcud beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi olaraq həyata keçirilir. Beynəlxalq münasibətlərin ümumi inkişaf tendensiyalarını müəyyənləşdirən əsərlərlə tanışlıq mövcud dövlətlərarası münasibətlərin mahiyyətini başa düşməyə imkan verir. Ə.M.Həsənovun "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" əsəri[3] bu mənada diqqəti cəlb edir. Azərbaycan-İsrail humanitar əlaqələri beynəlxalq hüququn prinsip və tələbləri çərçivəsində cərəyan edir. "Humanitar əlaqələr", "humanitar hüquq" anlayışları, mahiyyəti, definisiyası ilə bağlı məsələlər L.H.Hüseynovun, V.Ə.İbayevin, V.A.Batırın, A.A.Velikayanın, J.S.Piktenin əsərlərində şərh olunur. Bu müəlliflərin problemlə bağlı nəzəri yanaşmaları və fikirləri Azərbaycan-İsrail humanitar əlaqələrinin əhatə dairəsini müəyyənləşdirmək baxımından da əhəmiyyətlidir[4].

Azərbaycan və İsrail arasındakı münasibətlər S.İ.Məmmədovanın tədqiqatlarının[5] əsas obyektini təşkil edir. Lakin müəllif iki ölkə arasında

---

[3] Həsənov, Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.M.Həsənov. – Bakı: Azərbaycan, – 2005. – 752 s.

[4] Hüseynov, L.H. Beynəlxalq hüquq. Dərslik. / L.H.Hüseynov – Bakı: Hüquq ədəbiyyatı, – 2000, – 408 s. ; İbayev, V.Ə. Beynəlxalq humanitar hüquq / V.Ə.İbayev – Bakı: Hüquq ədəbiyyatı, – 2001, – 496 s. ; Батыр, В.А. Международное гуманитарное право / В.А.Батыр – Москва: Юстицинформ, – 2006, – 336 с. ; Великая, А.А. Международное гуманитарное сотрудничество: политические аспекты отечественных и западных подходов // – Москва: Право и управление. XXI век, – 2012, №3, (24), – с. 63-72; Пикте, Ж.С. Развитие и принципы международного гуманитарного права / Международный комитет Красного Креста, – 1994, – 127 с.

[5] Məmmədova, S.İ. Azərbaycan-İsrail münasibətləri (1991-2008-ci illər): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2018, – 25 s. ; Məmmədova, S.İ. Azərbaycan Respublikası ilə İsrail dövləti arasında informasiya-kommunikasiya sahəsində əməkdaşlıq (1991-2008-ci illər) // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, İctimai elmlər seriyası, – 2014, № 9 (65), – s. 73.

mədəni-humanitar əlaqələri ayrıca tədqiqat obyekti kimi deyil, 1991-2008-ci illəri əhatə edən xronoloji çərçivədə, diplomatik-siyasi və ticarət-iqtisadi əlaqələrlə yanaşı olaraq öyrənmişdir.

Tədqiq olunan mövzu ilə bağlı məsələlər R.A.Hüseynovun araşdırmalarında da mühüm yer tutur. Müəllif Azərbaycanın yəhudi icmasının tarixindən, iki ölkə arasında diplomatk münasibətlərin yaranmasından, siyasi və iqtisadi sahələrdə əməkdaşlıq məsələlərindən bəhs etsə də, humanitar əlaqələr sahəsi cüzi məqamlar nəzərə alınmazsa, diqqətdən kənarda qalmışdır. R.A.Hüseynovun tədqiq etdiyi mövzulardan biri də Azərbaycan, Türkiyə və İsrail arasındakı münasibətlərlə bağlıdır. Müəllif bu üç ölkə arasındakı əlaqələrin bir çox sahələrdə strateji xarakter daşıdığı qənaətinə gəlmişdir. R.A.Hüseynovun Azərbaycan-İsrail münasibətləri ilə bağlı apardığı tədqiqatlar humanitar sahəni əhatə etməsə də, əldə etdiyi nəticələr onu deməyə əsas verir ki, ikitərəfli siyasi münasibətlərin yüksək səviyyəsi humanitar əlaqələrin dərinləşməsi üçün də şərait yaradır[6].

Azərbaycan-İsrail əlaqələrinin müxtəlif cəhətlərinə aydınlıq gətirməyə çalışan müəlliflərfdən biri də A.Əhmədovdur. Müəllifin tədqiqatlarında iki ölkə arasında təşəkkül tapmış əlaqələrin müxtəlif istiqamətlərinə münasibət bildirilmişdir. Humanitar sahədə əməkdaşlığa gəldikdə isə, müəllif Azərbaycanda fəaliyyət göstərən bir sıra təşkilatlar barədə çox qısa məlumat verməklə kifayətlənir[7].

Azərbaycanda yəhudi icmasının formalaşması və onun tarixi ilə bağlı bəzi məqamlara İ.Davidin tədqiqatlarında toxunulur. Müəllifin "Qafqazda yəhudilərin tarixi" ikicildliyi Qafqaz yəhudilərinin qədim zamanlardan başlamış XX əsrin 20-ci illərinin əvvəllərinə qədər olan tarixi, onların siyasi, iqtisadi və mədəni sahələrdəki fəaliyyətləri haqqındadır[8].

---

[6] Гусейнов, А.Р. Азербайджан-Израиль: основные тенденции развития двусторонних отношений // – Лулео: Кавказ и глобализация, – 2008, № 1 (2), – с. 46-54.

[7] Əhmədov, A.P. Azərbaycan-İsrail münasibətləri: reallıqlar və perspektivlər // – Bakı: Strateji Təhlil, – 2014, № 7-8, – s. 181-196. ; Əhmədov, A.P. Dünya İqtisadi Forumu çərçivəsində Azərbaycan Respublikasının İsrail dövləti ilə diplomatik əlaqələri // – Bakı: Strateji Təhlil, – 2014, № 4, – s. 33-42.

[8] Давид , И. История евреев на Кавказе: [в 2 томах] / И.Давид. – Тель-Авив: Кавкасиони, – т.1. – 1989. – 700 с.

R.Hüseynovun “Qafqazda iudaizm”[9] məqaləsi də Qafqaz yəhudilərinin mənşəyi, regionda məskunlaşmaları, maddi-mənəvi mədəniyyət obyektləri, məişətləri və onların İsrail dövləti ilə əlaqələr kimi məsələləri özündə əks etdirir. Azərbaycan yəhudilərindən bəhs edən digər bir tədqiqat G.R.Zaxaryayevə aiddir. Məqalələrdə yəhudilərin Azərbaycanda məskunlaşması, onların həyat tərzi, Azərbaycanın keçmiş və müasir tarixində yeri, əldə etdikləri uğurlarla bağlı məsələlər təşkil edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş bu əsərdə Azərbaycanda multikulturalizm, milli və dini azlıqların inkişafı üçün respublikada mövcud hüquqi təminatlar və etno-mədəni proseslərin inkişafı ilə bağlı digər məsələləri ədalətli və obyektiv şərhini tapmışdır. Eyni sözləri M.V.Bekkerin tədqiqatları haqqında da demək olar. A.Murinsonun yəhudi icmasından bəhs edən məqaləsində də əsas diqqət icmanın keçmişinə yönəldilmişdir[10].

Azərbaycanın yəhudi icması S.Fərzəliyevin və S.Xanlarovun da tədqiqatlarının əsas mövzusudur[11].

M.Manafovanın kitabı[12] Azərbaycanla Yaxın, Orta və Uzaq Şərq ölkələri arasında təşəkkül tapmış mədəni əlaqələrdən bəhs edir. Kitabda İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası (Azİz) ilə əlaqədar məsələlər haqqında məlumatlar da verilmişdir.

---

[9] Гусейнов, А.Р. Иудаизм на Кавказе // – Лулео: Кавказ и глобализация, – 2008, № 3 (2), – с. 194-204.

[10] Захарьяев, Г.Р. Этнокультурное многообразие Азербайджана / Г.Р.Захарьяев. – Москва: Достоинство, – 2013, – 327 с. ; Беккер, М.В. Евреи в Азербайджане: история и перспективы: [Электронный ресурс] / URL: http://www.ca-c.org ; Беккер, М.В. Навеки вместе. Газ // Бакинский рабочий. – 2010, 30 октября. Беккер, М.В. Толерантность и мультикультурализм в Азербайджане на примере участия еврейской общины в общественно-политической жизни страны: / автореф. дисс.док. философии по политическим наукам. / – Баку, 2016. – 30 с. ; Муринсон, А. Азербайджано-еврейские отношения: realpolitik, укорененная в истории // – Лулео: Кавказ и глобализация, – 2008, № 2 (2), – с. 181-192.

[11] Фарзалиев, С. Распространение иудаизма на Кавказе исторический очерк // – Лулео: Кавказ и глобализация, – 2008, № 4 (2), – с. 168-178. ; Ханларов, С. Еврейская Слобода – переплетение времен и судеб // – Москва: Лехаим, – 2004, май, №5 (145).

[12] Manafova, M.C. Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri. Dərslik / M.C.Manafova – Bakı, – 2008, – 36 s. [Elektron resurs] / URL: http://elibrary.bsu.az

2004-cü ildə Bakıda rus dilində nəşr olunmuş “Yəhudilər Azərbaycanın mədəniyyəti və incəsənətində” kitabında[13] Azərbaycanın mədəniyyət və incəsənət tarixində özlərinin əbədi yerlərini tutmuş yəhudilərin həyat və fəaliyyətləri əks olunmuşdur.

İsrailin yüksək texnologiyalar sahəsində uğurlarının əks olunduğu əsərlər də tədqiq olunan mövzu baxımından diqqəti cəlb edir. Tədqiqat işində göstərilən sahələrdə əldə edilən uğurlardan, tətbiq edilən texnologiyalardan bəhs edilir və bütün bunların Azərbaycanda tətbiqi imkanları araşdırılır[14].

Azərbaycan-İsrail əlaqələri ilə bağlı məqamlar 1976-2005-ci illərdə Qüdsdə rus dilində nəşr olunmuş 11 cildlik “Qısa yəhudi ensiklopediyası”nda öz əksini tapmışdır.

Adları çəkilən əsərlərdə tədqiqat obyekti kimi Azərbaycanın yəhudi icması, onun inkişafı ilə bağlı məsələlər seçilmiş, Azərbaycan Respublikasının İsrail dövləti ilə əlaqələri isə, ya kölgədə qalmış, ya da zəif işıqlandırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan Respublikası ilə İsrail dövləti arasında humanitar əlaqələr tədqiqat işinin obyektini təşkil edir. Tədqiqat işinin predmetinə isə Azərbaycan və yəhudi xalqları arasındakı tarixi əlaqələr, ikitərəfli dövlətlərarası münasibətlərdə əhəmiyyətli rol oynayan dini strukturlar, mətbuat, elm, təhsil, müasir texnologiyalar və mədəniyyətin müxtəlif sahələri ilə bağlı məsələlər daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Azərbaycan və İsrail arasında humanitar əlaqələri tədqiq etmək, bu sahədə ikitərəfli münasibətlərin gələcək perspektivlərini müəyyən etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

– Ölkələrarası humanitar əməkdaşlığın nəzəri əsaslarını, anlayışlarını müəyyənləşdirmək;

– Azərbaycan və yəhudi xalqları arasında mövcud münasibətlərin tarixinə aydınlıq gətirmək;

[13] Евреи в культуре и искусстве Азербайджана / под. ред. Ф.К, Караева – Баку: Адильоглы, – 2008, – 234 с.

[14] Yaşıl inkişaf: enerji səmərəliliyi və alternativ mənbələr / V.Qasımlı, G.Nəsibova, M.Hümbətov [və b.] – Bakı: [n.y.], –2014, – 143 s.

– Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətlərin İsraildə və dünyada təbliği sahəsində Azərbaycan-İsrail əlaqələrinin əhəmiyyətini açıb göstərmək;

– Azərbaycanın yəhudi icmasının Azərbaycan-İsrail humanitar əlaqələrinin inkişafında oynadığı rolu üzə çıxarmaq;

– Azərbaycan-İsrail humanitar əlaqələrinin hüquqi-normativ bazasını müəyyənləşdirmək;

– ikitərəfli humanitar əlaqələrin inkişafında rol oynayan qurumların (mədəni-humanitar təşkilatlar, dini strukturlar və mətbuat) fəaliyyətini tədqiq etmək;

– elm, təhsil, yüksək texnologiyalar sahəsində Azərbaycan-İsrail əməkdaşlığının vəziyyətini öyrənmək;

– mədəniyyətin ayrı-ayrı sahələrində ikitərəfli əlaqələrin inkişafını izləmək.

**Tədqiqat metodları.** Dissertasiya işinin nəzəri əsaslarını Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konseptual xarakterli çıxışları, beynəlxalq və regional münasibətlərin mövcud vəziyyəti və perspektivləri ilə bağlı irəli sürdükləri ideya və fikirlər, Azərbaycan Respublikasının milli qanunvericiliyindən və qoşulduğu beynəlxalq konvensiyalardan, beynəlxalq münasibətlər haqqında nəzəriyyə və konsepsiyalardan irəli gələn müddəalar təşkil edir.

Tədqiqat işi həm tarixi keçmişlə, həm də müasir dövrlə bağlı olan zəngin materiallar əsasında yazıldığı üçün əsasən tarixilik, müqayisəli-tarixi, müqayisəli-politoloji və sistemli təhlil metodlarından istifadə olunmuşdur. Bundan başqa, iş prosesində ümumiləşdirmə, problem-xronoloji, deduksiya və induksiya kimi ümummәntiqi metodlar da tətbiq olunmuşdur.

**Müdafiəyə çıxarılan müddəalar:**

1. Azərbaycan-İsrail humanitar əlaqələrinin əsasını tarixən formalaşmış sosial-demoqrafik və mənəvi əlaqələr, həm Azərbaycanın, həm də İsrailin regional siyasi maraqları təşkil edir.

2. Humanitar əlaqələrin aparıcı tərəfi dağ yəhudilərinin öz tarixi vətənləri ilə dini-mənəvi əlaqələrinin həyata keçirilməsi, israilli miqrantların və Azərbaycan sakinlərinin şəxsi və sosial əlaqələri əsasında ölkələrin hər birində çoxsaylı mədəni layihələrin həyata keçirilməsidir.

3. Azərbaycanın həm neft, həm də qeyri-neft sektorlarının inkişafına əsaslanan və artmaqda olan sosial-iqtisadi potensialı Azərbaycan ilə İsrail arasında humanitar sahədə də əlaqələrin möhkəmlənməsinə və genişlənməsinə xidmət edir.

4. Humanitar sahənin inkişafına dünyada təhsil sisteminin inteqrasiyası, qarşılıqlı elmi əlaqə və miqrasiya imkanları əhəmiyyətli dərəcədə təsir göstərir. Humanitar sahəyə qloballaşmanın təsiri əhəmiyyətli səviyyədədir.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycan-İsrail humanitar əlaqələri Azərbaycanın siyasi elmində ayrıca dissertasiya tədqiqat obyekti olmamışdır və bu mövzu ilk dəfədir ki, sistemli şəkildə öyrənilir. Tədqiqatın elmi yenilikləri sırasında aşağıdakıları qeyd etmək mümkündür:

- Azərbaycan və İsrail arasındakı humanitar əlaqələrin möhkəm tarixi təməl üzərində inkişafı faktlara əsaslanaraq öyrənilmiş;
- İkitərəfli humanitar əlaqələrin genişlənməsində dövlət strukturları ilə yanaşı, mədəni-humanitar təşkilatların rolu tədqiq edilmiş, "Azİz"-in fəaliyyəti geniş təhlil olunmuş;
- dövlətlərarası münasibətlərin dinamikasına mətbuatın göstərdiyi müsbət və ya mənfi təsir təhlil edilmiş;
- Ermənistanın və erməni diasporunun Azərbaycan-İsrail münasibətlərini pozmağa yönəlik çirkin fəaliyyəti və buna olan reaksiyalar araşdırılmış;
- elm və təhsil sahəsində ikitərəfli münasibətlər forma və məzmun baxımından tədqiq edilmiş;
- azərbaycanlılarla yəhudilər arasındakı qarşılıqlı münasibətlərin, cüzi istisnalar olmaqla, mədəniyyətin bütün sahələrini əhatə etdiyi göstərilmiş, bu sahədə həyata keçirilən praktiki tədbirlər sistemləşdirilmiş və təhlil olunmuşdur.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işinin nəzəri əhəmiyyəti onunla şərtlənir ki, iş prosesində əldə olunmuş nəticələr Azərbaycan-İsrail əlaqələrinin xarakterini müəyyənləşdirməyə, onların mahiyyətini qiymətləndirməyə imkan verir ki, bu da öz növbəsində ikitərəfli münasibətlərin perspektivlərinin müəyyənləşdirilməsi zamanı nəzərə alına bilər.

Dissertasiyanın praktiki əhəmiyyətinə gəldikdə isə onun materialları tədqiq olunan mövzu ilə əlaqədar olan sahələrdə yeni tədqiqatların

aparılması, əsərlərin yazılması prosesində, tədrisdə, ali məktəblərdə dərsliklərin, fənn proqramlarının, mühazirə mətnlərinin, metodiki vəsaitlərin və s. tərtib olunmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi:** Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin Ali Atttestasiya Komissiyası tərəfindən tövsiyə olunan Azərbaycanda və xaricdə çap etdirdiyi elmi məqalələrdə, müxtəlif elmi-təcrübi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiyanın giriş hissəsi 11 səhifə, birinci fəsli 35 səhifə, ikinci fəsli 45 səhifə, üçüncü fəsli 35 səhifə, nəticə hissəsi 4 səhifə, ədəbiyyat hissəsi 19 səhifədən ibarətdir. Dissertasiya işi ümumilikdə 133 səhifə, 239843 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

**"Azərbaycan-İsrail humanitar əlaqələrinin tarixi və hüquqi əsasları"** adlı birinci fəslin **"Azərbaycan-İsrail humanitar əlaqələrinin nəzəri və tarixi əsasları"** adlı birinci paraqrafında tədqiqat sahəsinin vacib tərkib hissəsini təşkil edən və metodoloji xarakter daşıyan müasir beynəlxalq münasibətlərdə ölkələrarası humanitar əməkdaşlıq problemi araşdırılır. "Soyuq müharibə"nin başa çatması ilə iqtisadi-siyasi münasibətlərdə yaranmış yeni vəziyyətdə artıq ayrı-ayrı dövlətlərin nüfuzu, beynəlxalq münasibətlər sistemindəki yeri və rolu onların yalnız hərbi-siyasi gücü və maliyyə-iqtisadi imkanları ilə deyil, həm də mədəni-humanitar sahədə əldə etdikləri nailiyyət və malik olduqları potensial ilə də müəyyən olunur. Hazırda yer üzərində onlarla

hərbi münaqişənin mövcud olmasına baxmayaraq, qloballaşan dünyanın inkişaf dinamikası bir daha sübut edir ki, ölkələr arasında humanitar və elmi-mədəni sahələrdə əməkdaşlıq və dinc rəqabət silahlı toqquşmaların və qanlı müharibələrin qarşısını alır, humanitar əməkdaşlıq genişləndirilir. Humanitar sahədə inteqrasiya proseslərinin genişlənməsi regional və beynəlxalq münasibətlər sistemində mühüm yer tutur. Qərbdə bəzi hallarda humanitar əməkdaşlığın forması dəyişərək, "yumşaq güc" elementindən "sərt güc" faktoruna çevrilir, yəni humanitar müdaxilə adı ilə başlanan əməliyyatlar sonradan dağıdıcı və faciəli müharibələrə qədər inkişaf edir. Bu sahədə beynəlxalq humanitar hüququn prinsiplərini xüsusi qeyd etmək lazımdır.

Qeyd olunanlardan göründüyü kimi, humanitar məsələlər həmişə bəşəriyyəti maraqlandırmış, humanistlik ideyaları yaradıcı insanların, siyasətçilərin, elm adamlarının diqqətini cəlb etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı zamanı qeyd etdiyi kimi, *"Hər bir ölkə digər ölkənin seçiminə də hörmətlə yanaşmalıdır-həm beynəlxalq müstəvidə, həm də dinlərarası dialoq, humanitar sahədə. Bütün bunlar bir-biri ilə bağlıdır"*[15].

Beləliklə, Azərbaycan-İsrail humanitar münasibətləri tarixi əsaslara malik güclü siyasi, iqtisadi və digər dövlətlərarası münasibətlərə, eyni zamanda ümumi maraq və məqsədləri müəyyən edən müasir siyasi və iqtisadi reallıqlara əsaslanır. Azərbaycan əsasən müsəlman ölkəsi olduğu üçün iqtisadi və humanitar məsələlərdə İsraillə yaxınlaşma prosesi digər müsəlman ölkələrinin də maraqlarını və mövqeyini nəzərə almaqla kifayət qədər ehtiyatla aparılır. İsrailin qonşu dövlətlərlə, ilk növbədə Fələstin və İranla münasibətlərini də nəzərə almaq lazımdır. Eyni zamanda, İsrail Azərbaycanın müstəqilliyini 1991-ci ildən rəsmən tanıdıqdan sonra geniş diplomatik əlaqələr formalaşmağa, bunun əsasında isə iqtisadi, mənəvi, mədəni münasibətlər qurulmağa və genişlənməyə başladı.

Birinci fəslin **"Azərbaycan və İsrail arasında humanitar əlaqələrin hüquqi bazası"** adlı ikinci paraqrafında Azərbaycan və İsrail arasında mövcud humanitar əlaqələrin əsaslandığı hüquqi baza: hər iki

[15] Prezident İlham Əliyev: Son 10 il ərzində Azərbaycan iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkə olub. [Elektron resurs] / URL: http://az.trend.az

dövlət tərəfindən tanınan beynəlxalq xarakterli hüquqi aktlar və dövlətlərarası münasibətləri tənzimləmək məqsədilə Azərbaycan və İsrail arasında imzalanmış sənədlər haqqında məlumatlar verilir.

Beynəlxalq münasibətlərin təsirli alətlərindən olan humanitar əməkdaşlıq dünyanın terror, dağıdıcı münaqişələr, ekoloji böhran, müasir texnologiyaların tətbiqi ilə xarakterizə olunan cinayətlər, mənəvi böhran və bəşəri dəyərlərin  aşınması kimi mənfi hallarla üz-üzə qaldığı bir zamanda xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, dünyada baş verən sistem dəyişiklikləri də, proseslərə humanitar yanaşmanı ön plana çıxarır.

Humanitar əlaqələrin beynəlxalq hüquq müstəvisində tənzimlənməsində BMT Baş Assambleyasının qətnamələri böyük əhəmiyyət daşıyır.

Azərbaycan-İsrail humanitar əlaqələrinin hüquqi əsasını beynəlxalq xarakterli sənəd və aktlarla yanaşı, iki dövlət arasındakı münasibətləri tənzimləmək məqsədilə imzalanmış sənədlər də təşkil edir[16]. Azərbaycan-İsrail humanitar əlaqələrinin inkişafı üçün əlavə imkanlar yaradan *"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"*[17] tərəflər arasında təhsil, mədəniyyət, elm və idman sahələrində əməkdaşlığın, habelə hər iki ölkənin gəncləri arasında əlaqələrin inkişafını təşviq etmək məqsədini daşıyır. Daha sonra *"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"*[18] də iki ölkə arasında humanitar əlaqələrin hüquqi-normativ bazasını təşkil edən sənədlər sırasında özünəməxsus yer tutur.

---

[16] Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş // 9 mart 1995-ci ildə imzalanmışdır (29 aprel 2003-cü ildə təsdiq edilmişdir ). – Bakı: Saziş. [Elektron resurs] / URL: http://www.e-qanun.az

[17] Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş // 28 iyun 2009-cu ildə imzalanmışdır (22 iyul 2009-cu ildə təsdiq edilmişdir ). – Bakı: Saziş. [Elektron resurs] / URL: http://www.e-qanun.az

[18] Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş // 28 iyun 2009-cu ildə imzalanmışdır (22 iyul 2009-cu ildə təsdiq edilmişdir ). – Bakı: Saziş. [Elektron resurs] / URL: http://www.e-qanun.az

Yuxarıda qeyd olunanlardan savayı, Azərbaycan və İsrail arasında daha üç saziş, bir konvensiya və bir memorandum imzalanmışdır. 2011-ci il 16 dekabr tarixində Bakıda imzalanmış *"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"*[19] gömrük işi, gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi sahələrində qarşılıqlı yardımın göstərilməsini nəzərdə tutur.

Göründüyü kimi, Azərbaycan ilə İsrail arasında humanitar əlaqələri inkişaf etdirmək üçün geniş hüquqi baza mövcuddur. Hər iki dövlətin çoxsaylı beynəlxalq təşkilatlara üzv olması, hüquqi-normativ sənədlərə qoşulması bu əlaqələrin sistemli şəkildə inkişaf etdirilməsinə şərait yaradır.

**"Azərbaycan-İsrail humanitar əməkdaşlığının əsas istiqamətləri"** adlanan ikinci fəslin "**Mədəni-humanitar təşkilatların ikitərəfli əlaqələrin inkişafına təsiri"** adlı birinci paraqrafında Azərbaycan və İsrail dövlətlərinin mədəni-humanitar təşkilatlarının ikitərəfli əlaqələrin inkişafına təsiri öyrənilir. İlk növbədə göstərilir ki, mədəni-humanitar təşkilatlar Azərbaycan-İsrail əlaqələrinin də mühüm tərkib hissəsinə çevrilmişdir. Ötən əsrin 80-ci illərinin sonlarında, o cümlədən 1992-ci ildə Azərbaycan ilə İsrail arasında humanitar əlaqələrin inkişafına yardım göstərən müxtəlif qurum və bir neçə yəhudi təşkilatı yaranmışdır. Azərbaycan-İsrail humanitar əməkdaşlığı çərçivəsində fəaliyyət göstərən əsas təşkilatlar sırasında "İsrail üçün Beynəlxalq Yəhudi Agentliyi" ("Soxnut") və "İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası"nı ("Azİz") qeyd etmək olar.

Azərbaycan-İsrail əlaqələrinin inkişafında müstəsna rol oynayan İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası "Azİz"-in təsis qurultayı 2007-ci il 12 aprel tarixində Təl-Əvivdə keçirilmişdir. Bundan başqa, Azərbaycan-İsrail humanitar əlaqələrinin inkişafına öz töhfəsini verən təşkilatlar sırasında "Coynt" və "Vaad L'Hatzolas Nidchei Yisroel" komitələrini də qeyd etmək lazımdır. ABŞ-da yaradılan bu təşkilatların fəaliyyəti ölkədən kənarda yaşayan yəhudiləri əhatə edir və onların İsrail ilə əlaqələrinin genişləndirilməsinə xidmət göstərir.

---

[19] Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş // 16 dekabr 2011-ci ildə imzalanmışdır (07 mart 2012-ci ildə təsdiq edilmişdir ). – Bakı: Saziş. [Elektron resurs] / URL: http://www.e-qanun.az

Azərbaycan “Amerika Birləşmiş Yəhudi Bölüşdürücü Komitəsi” nin geniş planda fəaliyyət göstərdiyi respublikalardan biridir. “Yəhudi İcması Mədəniyyət Mərkəzi” “Coynt” komitəsinin dəstəyi ilə fəaliyyətini davam etdirir. Xeyriyyəçiliklə məşğul olan bu mərkəz Azərbaycanda yaşayan xalqlar arasında sülhün, dostluğun və qarşılıqlı anlaşmanın təbliğinə yardım edir.

Dövlətlərarası və xalqlararası münasibətlərin genişlənməsində cəmiyyətin fəal və dinamik hissəsini təşkil edən gənclərin rolu böyükdür. İki ölkə gəncləri arasında əlaqələrin genişlənməsində 2005-ci ildə təsis edilmiş “Azərbaycan-İsrail Gənclərinin Dostluq Cəmiyyəti” özünəməxsus yer tutur.

Qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, Azərbaycan-İsrail humanitar əlaqələrinin təşəkkül tapıb genişlənməsində mədəni-humanitar təşkilatların rolu kifayət qədər yüksəkdir və bu əlaqələrin inkişafında “Soxnut” və “Azİz” xüsusi yer tutur. Onların həyata keçirdikləri tədbirlər iki ölkə arasında elm, təhsil, xeyriyyəçilik və s. sahələrdə əməkdaşlığın tərəqqisinə, Azərbaycan və yəhudi xalqlarının sülh və təhlükəsizlik şəraitində yaşamalarının təmin edilməsinə xidmət edir.

İkinci fəslin **“Qarşılıqlı humanitar əlaqələrdə dini strukturların yeri”** adlanan paraqrafında Azərbaycan-İsrail əlaqələrində dini qurum və təşkilatların rolu açıqlanır, inkişaf tendensiyaları təyin edilir. Təcrübə göstərir ki, Azərbaycan və İsraildə fərqli dinlərin üstünlük təşkil etməsinə baxmayaraq, Azərbaycan-İsrail əlaqələrinin inkişafında dini icmaların və strukturların müsbət iştirakı həm tarixi keçmişdən, həm də dövlətərin milli maraqlarından qaynaqlanır. Azərbaycan dövlətinin bərabərliyə, humanistliyə əsaslanan din siyasəti Prezident İlham Əliyevin hakimiyyəti illərində də davam edir[20]. Azərbaycanda tolerant mühitin yaradılmasına Heydər Əliyev Fondu, xüsusilə də onun rəhbəri, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva da öz töhfəsini vermişdir[21]. Həyata keçirilən siyasət Azərbaycanda tolerantlığın

[20] Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı // Xalq. – 2010, 8 sentyabr.

[21] Hüseynov, S. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik / S.Hüseynov. – Bakı:Təknur, – 2012, – 176 s.

möhkəmlənməsinə, dini icmaların, o cümlədən yəhudi icmasının inkişafına şərait yaratmışdır.

Azərbaycan-İsrail əlaqələri İsrailin müxtəlif mətbuat orqanlarında ümumilikdə obyektiv işıqlandırılmışdır. Lakin hadisə və proseslərin təhrif edildiyi, saxtalaşdırıldığı, Azərbaycan və İsrail münasibətlərinə xələl gətirmək məqsədi daşıyan məqalələrə də təsadüf olunur. Bu cür məlumatları işıqlandıran İsrailin mətbuat orqanlarına misal olaraq, "Haaretz" və "Jerusalem Post" qəzetlərini göstərmək olar. Qərəzli yazıların Azərbaycanla yaxın əməkdaşlıq münasibətlərində olan ölkənin mətbuatında işıq üzü görməsi isə, müəyyən qədər təəccüb doğurur və onlara Azərbaycanda rəsmi səviyyədə münasibət bildirilməsi də bundan irəli gəlir.

Azərbaycan-İsrail əlaqələri ilə bağlı məlumatlara Rusiya mətbuatında – "İzvestiya" *("Известия")*, "Komsomolskaya pravda" *("Комсомольская правда")*, "Kommersant" *("Коммерсант")*, "Moskovskie novosti" *("Московские новости")* və s. qəzetlərdə də rast gəlinir.

Ölkələrimizin qanunvericilik orqanları arasında əməkdaşlığın genişləndirilməsi baxımından, deputatların qarşılıqlı səfər və görüşləri haqqında məlumatların, 44 günlük Vətən müharibəsində Vətənimizin parlaq Qələbəsi və azad olunan torpaqlarda İsrail dövlətinin dəstəyi ilə bərpa və yenidənqurma işlərinin təşkili, yaralı əsgərlərimizə yardım, onların müalicəsi və bir çox başqa məsələlərin *(iqtisadi, turizm, kənd təsərrüfatı sahələrində əlaqələrin inkişafı, bərpa olunan enerji, yeni texnologiyaların tətbiqi ilə bağlı əməkdaşlıq, su ehtiyatlarının səmərəli istifadəsi və s.)* işıqlandırılmasında da KİV-in rolu danılmazdır[22]. Azərbaycan-İsrail əməkdaşlığının səmərəli şəkildə davam etdiyi 44 günlük Vətən Müharibəsi dövründə İsrail dövlətinin Azərbaycanın haqq işinə maddi və mənəvi dəstəyi ilə bərabər, "informasiya müharibəsin" sahəsindəki səyləri və təcavüzkar dövlətə qarşı hərbi-siyasi mövqeyi diqqətəlayiqdir. Vətən müharibəsi dövründə hərbi əməliyyatlara dünya dövlətləri və bütünlükdə ictimaiyyətin həssaslıqla yanaşdığı bir zamanda Azərbaycana dəstək olan digər dövlətlər kimi, İsrail də xalqımızın haqq işi uğrunda mübarizəsində dövlətimizin yanında olmuş, öz mövqeyini

---

[22] Milli Məclisdə görüş keçirilib: [Elektron resurs] / URL: https://www.realtv.az/news/az/

aşkar bildirmiş, Azərbaycanın öz ərazi bütövlüyünün bərpası naminə mücadiləsini fəal şəkildə dəstəkləmişdir. Azərbaycanın İkinci Qarabağ müharibəsində böyük Qələbəsi İsraildə keçirilən tədbir, görüş və aksiyalarda qeyd edilmiş, mətbuatda işıqlandırılmış, dünyaya ermənilərin iç üzünü göstərən çağırış və mesajlar verilmişdir[23].

2021-ci il 8 iyun tarixində Kəlbəcərdə azərbaycanlı jurnalistlərin həlak olması hadisəsinə etiraz əlaməti olaraq "Azİz"-in təşkilatçılığı ilə keçirilən video-konfrans dünyadakı bütün jurnalistləri, ictimai birlik və dövlət təşkilatlarını erməni terrorunun dinc əhaliyə yönələn özbaşınalıq və hərbi cinayətlərinə qarşı çıxmağa səsləmiş, baş vermiş hadisəni dünya ictimaiyyətinə çatdırmışdır[24].

Beləliklə, Azərbaycan və İsrail dövlətləri, azərbaycanlılar və yəhudilər arasındakı münasibətlər istər bu ölkələrin, istərsə də dünya mətbuatı üçün kifayət qədər maraq doğurur. Azərbaycan mətbuatında bu məsələnin ardıcıl işıqlandırılması da təsadüfi deyildir. Çünki burada zəngin tarixə malik və yaxşı təşkilatlanmış, Azərbaycan-İsrail münasibətlərində körpü rolunu oynayan yəhudi icması mövcuddur.

**“Azərbaycan və İsrail arasında humanitar əlaqələrin elmi və mədəni aspektləri”** adlı üçüncü fəsildə bir neçə altfəsil vardır. **“Elmi-texniki və təhsil sahəsində Azərbaycan-İsrail əməkdaşlığı”** adlanan birinci paraqrafda Azərbaycan-İsrail humanitar əlaqələri sistemində elmi-texniki əməkdaşlığın əhəmiyyətindən bəhs edilir. İsrail elmin və texnikanın inkişafı səviyyəsinə görə dünyanın inkişaf etmiş, bəzi sahələrdə isə ən inkişaf etmiş ölkələrindən biridir. Elmi-texniki inkişaf sahəsində Azərbaycan da müəyyən uğurlara imza atsa da, obyektiv və subyektiv səbəblərdən bu istiqamətdəki işlər sistemli şəkildə davam etdirilməmişdir. Ümummilli Lider Heydər Əliyev Azərbaycanda elmi müəssisələr şəbəkəsini genişləndirməyə nail olmuş, azərbaycanlı gəncləri Rusiya, Ukrayna və Belarusun ali məktəblərinə göndərməklə, respublikanın elmi potensialının inkişafına şərait yaratmışdır. Elmi-texniki sahədə İsraillə əməkdaşlıq, şübhəsiz ki, bu fərqi aradan qaldırmaq üçün kifayət qədər əhəmiyyətli ola bilər.

---

[23] Azərbaycan diasporu [PDF]: [Elektron resurs] / URL: https://files.preslib.az/projects/diaspora/articles/

[24] İsrailli jurnalistlər həmkarlarının ölümünü terror aktı adlandırdı: [Elektron resurs] / URL: https://ajmedia.info/blog/israilli-jurnalistler

Ölkələrin ideoloji əsaslarının, xalqların düşüncə tərzinin, onların başqa xalqlara münasibətinin formalaşmasında ictimai elmlərin son dərəcə əhəmiyyəti vardır və Azərbaycan-İsrail elmi əlaqələrində ictimai elmlər sahəsində əməkdaşlıq da xüsusi yer tutur.

İsraildə elmin istehsalla sıx bağlı olduğunu nəzərə alsaq, yüksək texnologiyalar sahəsinda ixtisaslaşmış İsrail şirkətləri ilə əməkdaşlıq İsrailin elmi nailiyyətlərinin Azərbaycanda tətbiqi üçün şərait yaradır.

İsraildə səhiyyə və tibb elminin yüksək inkişafı beynəlxalq səviyyədə etiraf olunan faktdır. Tibb sahəsində Azərbaycan-İsrail əlaqələrini genişləndirmək üçün təşəbbüslərlə çıxış edən strukturlar sırasında Heydər Əliyev Fondu və İsrailin Azərbaycandakı səfirliyi də vardır.

Azərbaycan və İsrail arasında elmi-texniki əməkdaşlığının genişlənməsində potensial imkana malik kənd təsərrüfatının inkişaf etdirilməsi üçün müstəqillik illərində Azərbaycanda əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycan-İsrail humanitar əlaqələri təhsil sahəsini də əhatə edir. Bu sahədəki əməkdaşlığın kökləri Azərbaycanda yəhudi təhsilinin təşkilinə gedib çıxır.

Yuxarıda qeyd olunanlar Azərbaycan və İsrail arasında elmi-texniki və təhsil sahəsində əlaqələrin mövcudluğundan xəbər verir. Bu əlaqələr daha çox İsrailin əldə etdiyi nailiyyətlərin bölüşdürülməsi və təcrübələrinin Azərbaycanda tətbiqi məqsədini daşıyır. Bu da təbiidir, çünki İsrailin yüksək standartlara cavab verən elmi və təhsili istənilən dövlət üçün, o cümlədən də Azərbaycan üçün cəlbedicidir. Azərbaycan və İsrail arasındakı əlaqələr ictimai elmlər, informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, enerji, kənd təsərrüfatı sahələrini də əhatə edir. Artıq iki ölkənin təhsil müəssisələri arasında müəyyən əməkdaşlıq əlaqələri təşəkkül tapmışdır.

Üçüncü fəslin **"Mədəniyyət sahəsində ikitərəfli əlaqələrin inkişafı"** adlı ikinci paraqrafında Azərbaycan-İsrail qarşılıqlı əlaqələrinin mədəniyyət sahələrini də əhatə etdiyi göstərilir. Azərbaycan və yəhudi xalqlarının qədim və zəngin, əsrlərin süzgəcindən keçərək dövrümüzədək gəlib çıxmış mədəniyyətə malik olmaları bu əlaqələrin mövcudluğunu və gələcəyini şərtləndirən amil kimi mədəniyyət sahəsində əməkdaşlığı genişləndirməyə əsas verir.

Tarix və mədəniyyətlərin təbliği sahəsində kinonun imkanları son dərəcə genişdir. XX əsrin ən qanlı səhifələrindən olan Xocalı faciəsinin əks olunduğu, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təşkil edilən “Xocalıya ədalət-Qarabağa azadlıq!” kampaniyası çərçivəsində ərsəyə gələn və litvalı rejissor Andreas Brokasın çəkdiyi “Sonsuz dəhliz” sənədli filmi 2015-ci il 4 avqust tarixində İsrailin “Channel 1” televiziya kanalı vasitəsilə bu ölkənin tamaşaçılarına təqdim olunmuşdur[25].

Azərbaycan və İsrail mədəni əlaqələrində təsviri incəsənət, rəssam və fotoqrafların məzmunca zəngin, formaca müxtəlif olan əsərlərinin nümayişi, müxtəlif idman tədbirləri və yarışları da xalqlararası dostluq münasibətlərinin inkişafı və mədəniyyətlərin təbliği üçün gözəl vasitəyə çevrilmişdir.

Ümumilikdə, sadalananlar Azərbaycan ilə İsrail arasında mədəni əlaqələrin yüksək səviyyədə olduğunu deməyə imkan verir. Azərbaycan və yəhudi xalqları arasında mədəni əlaqələrin inkişafını təmin edən əsas amil şübhəsiz ki, bu əlaqələrin tarixi kökləri və müasir dövrdə Azərbaycan və İsrail dövlətləri arasında təşəkkül tapmış əməkdaşlıq münasibətləri ilə bağlıdır. Bu əlaqələr müasir dövrdə də öz məcrası üzrə inkişaf etməkdədir. İki ölkə arasındakı humanitar əlaqələrin mühüm tərkib hissəsi hesab edilən mədəni əlaqələr, miqyasının genişliyi, formasının müxtəlifliyi, məzmununun dərinliyi ilə diqqəti cəlb edir. Bu əlaqələr mədəniyyətin demək olar ki, bütün sahələrini – ədəbiyyat, musiqi, təsviri incəsənət, teatr, kino, muzey işini və s. əhatə edir. Hər iki ölkənin mədəniyyət və incəsənət xadimləri və kollektivləri həm Azərbaycanda, həm də İsraildə təşkil olunmuş tədbirlərdə mütəmadi olaraq iştirak etmiş və bununla da, Azərbaycan və yəhudi mədəniyyətlərinin qarşılıqlı surətdə zənginləşdirilməsi işinə öz töhfələrini vermişlər. Bu da son nəticədə, Azərbaycan və yəhudi xalqları arasındakı dostluq münasibətlərinin daha da möhkəmlənməsinə şərait yaradır.

“**Nəticə”** hissəsində tədqiqata yekun vurulur, ümumləşdirilmiş müddəalar əsasında təklif və tövsiyyələr irəli sürülür.

Azərbaycan və İsrail arasında təşəkkül tapmış humanitar əlaqələr möhkəm tarixi əsaslara söykənir. Əsrlər boyu azərbaycanlıların və

[25] “Sonsuz dəhliz” filmi İsrail telekanalında // Mədəniyyət. – 2015, 5 avqust.

yəhudilərin dostluq və əməkdaşlıq şəraitində yaşamaları bu əlaqələri şərtləndirən əsas amillərdəndir. Azərbaycanda antisemitizm heç vaxt olmamışdır, burada tarixən formalaşmış yəhudi icmaları istər etnik, istərsə də, dini baxımdan sərbəst inkişaf etmiş, öz adət-ənənələrini qoruyub saxlaya bilmişlər. Yəhudilər Azərbaycanın siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında da fəal iştirak edirlər. Bu gün respublikadakı yəhudi icmaları həm də dövlətin və hökumətin himayəsi altındadır. Azərbaycanda yəhudilərə göstərilən bu tolerant münasibət həm İsrail, həm də dünya yəhudiləri tərəfindən yüksək qiymətləndirilir və Azərbaycan-İsrail humanitar əlaqələrinin inkişafına müsbət təsir göstərir.

Azərbaycan-İsrail humanitar əlaqələrinin formalaşmasında və inkişafında dövlət başçılarının görüşlərinin rolu böyükdür. Ümummili Lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin müxtəlif beynəlxalq tədbirlərdə İsrail rəhbərləri ilə görüşləri zamanı aparılan danışıqlarda humanitar məsələlər də yer almışdır.

Ümumilikdə, Azərbaycan-İsrail humanitar əlaqələri özünün yüksək səviyyəsi, rəngarəngliyi və zənginliyi ilə seçilir və eyni zamanda, ölkələr bu əlaqələri daha da inkişaf etdirmək üçün əlavə potensiala malikdir. Bununla yanaşı, humanitar əlaqələrin genişlənməsi Azərbaycan və İsrail əməkdaşlığının digər sahələrdə də inkişafı üçün münbit zəmin yaradır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Azərbaycan-İsrail münasibətləri // DİA "H.Əliyevin dövlətçilik irsi və müstəqil Azərbaycanın inkişaf modeli" mövzusunda doktorant və dissertantların elmi konfransının materialları), Bakı, – 2012, – səh.76-83;

2. "Azərbaycanın yəhudi icmasının tarixindən" // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə (elmi-nəzəri və praktiki jurnal), Bakı, – 2013, №4, – səh. 193-197;

3. Müasir dövrdə Azərbaycan-İsrail mədəni əlaqələri // Azərbaycan Respublikası Təhsil Nazirliyi (Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları), Bakı, – 2013, cild 2, – səh. 454-456;

4. Отражения в печати политических взаимоотношений Азербайджана и Израиля // "Азимут научных исследований: экономика и управление", Тольятти, Р.Ф., – 2016, Том 5, №4(17), – стр. 424-426;

5. Языковые процессы в современной политической культуре как фактор интеграции и сотрудничества между разными странами // Всеукраїнська науково-практична конференція "Пріоритетні завдання і стратегії розвитку суспільних наук" Класичний приватний університет, Запоріжжя, Україна, – 2016, 23-24 грудня, – стр. 126-129.

6. Сотрудничество между Азербайджаном и Израилем в сфере науки, техники и образования в годы независимости Азербайджана // Sociologie Člověka (scientific and analytical journal), Czech Republic, Prague, – 2016, №4, – стр. 39-46;

7. Azərbaycanın xarici siyasətində iqtisadi amil // Sivilizasiya (elmi-nəzəri jurnal), Bakı, – 2016, №4(32), – səh. 75-79;

8. İsraildə Azərbaycan icması // Sivilizasiya (elmi-nəzəri jurnal) Bakı, – 2021, №2(32), – səh. 116-123;

9.İkinci Qarabağ müharibəsi fonunda Azərbaycan-İsrail münasibətləri // Geostrategiya (beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnalı), Bakı, – 2021, №4, – səh. 5-11.

Dissertasiya işinin müdafiəsi “06” “noyabr” 2023-cü il tarixində saat $14^{00}$ Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində təşkil edilmiş FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “05” “oktyabr” 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.09.2023
Kağızın formatı: A5
Həcm: 39149
Tiraj: 80